# AZƏRBAYCAN SOSİAL-İQTİSADİ İNKİŞAFIN YENİ MƏRHƏLƏSİNDƏ

## *Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strateji kurs Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin daim möhkəmləndirilməsinə xidmət edir*

**Azərbaycan bu gün davamlı innovativ inkişaf nəticəsində iqtisadi qüdrətin daha yüksək pilləsinə doğru uğurla irəliləməyə nail olan dövlətdir. Bu zəmində tərəqqi dövlət həyatının bütün sahələrində çox aydın müşahidə olunur. Müstəqil Azərbaycanın inkişafında sürəkli dinamizm inkarolunmaz reallıqdır. Davamlı, yüksək templi tərəqqi Azərbaycana müstəqil siyasət yürütməyə, güclü iqtisadiyyat yaratmağa və dünya siyasətində müstəqil fəaliyyətə imkan verib. Ulu öndər Heydər Əliyevin ölkə üçün müəyyən etdiyi siyasi kurs iqtisadi və siyasi müstəqilliyi daim möhkəmləndirməyə xidmət edir. Onun layiqli və bacarıqlı davamçısı Azərbaycan Prezidenti İlham Əliyev proqnozlaşdırılan mövqeyə çatmaq üçün ölkəni inamla irəli aparmaqdadır.**

Dövlət başçısı iyun ayında “Bakı-2015” birinci Avropa Oyunlarının paytaxtımızda keçirilməsinin səbəbinin də ölkəmizin müstəqil siyasət yürütməsi, davamlı sürətli innovativ inkişaf etməsi, bu qərarın da yüksək etimad olması barədə deyib: “Birinci Avropa Oyunlarını keçirmək bizim üçün həm böyük etimad, həm də böyük məsuliyyətdir. Eyni zamanda, biz bunu Azərbaycana beynəlxalq miqyasda göstərilən marağın təzahürü kimi qiymətləndiririk. Son 10 ildə Azərbaycanın dinamik inkişafı, cəmiyyət həyatının bütün sahələrində əldə olunmuş mühüm uğurlar, beynəlxalq arenada yürütdüyümüz müstəqil fəal siyasət ölkəmizin nüfuzunu daha da yüksəltmişdir. Həmçinin həyata keçirilmiş nəhəng quruculuq işləri nəticəsində Bakı dünyanın ən gözəl, ən müasir şəhərlərindən birinə çevrilmişdir”. Ölkəmizin göstəricilərinə diqqət yetirəndə son 12 ildə Azərbaycanın siyasi və makroiqtisadi baxımdan dünyada ən sabit dövlətlərdən biri, yerləşdiyi regionun iqtisadi və mədəni mərkəzi, Avrasiya materikində böyük iqtisadi və siyasi əhəmiyyətə malik transmilli layihələrin təşəbbüskarı və lideri, beynəlxalq əməkdaşlıqda etibarlı tərəfdaş olduğu aydın müşahidə olunur. Dövlətin qətiyyətli, düşünülmüş siyasəti ilə son 10 ildə Azərbaycanın ümumi daxili məhsulu 3 dəfə, dövlət büdcəsinin gəlirləri 12,2 dəfə, xarici ticarət dövriyyəsi 4,3 dəfə, sənaye istehsalı 2,7 dəfə, artıb. Ölkədə yoxsulluğun səviyyəsi 8 dəfə azalaraq 5 faizə, işsizliyin səviyyəsi isə 4,9 faizə enib. İqtisadiyyatın dayanıqlılığı və inkişafının dinamizminin təmini üçün investisiya qoyuluşu ilbəil artır. Ölkə iqtisadiyyatına 1995-ci ildən 2014-cü ilədək 200 milyard ABŞ dolları həcmində investisiya yönəldilmişdir. Uğurlu iqtisadi siyasət nəticəsində artım 2015-ci ildə də davam edir. Bu ilin beş ayında əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM-də 5,3 faiz artıma nail olunub. Dövlətin iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını prioritet elan etməsi nəticəsində çoxşaxəlilik təmin olunub və inkişafın dinamizmi öz sürətini ilbəil artırır. Əsas hədəf neft sektorundan asılılığın minimuma endirilməsidir. Bu məqsədə uğurla nail olunur. Təsadüfi deyil ki, hazırda qeyri-neft sektoru sənayesində 12 faiz artım baş verib və beləliklə, ÜDM-in strukturunda qeyri-neft sektorunun payı 66 faizə çatıb.

Azərbaycan dünya iqtisadiyyatına uğurla inteqrasiya olunur. Bu proses müasir tələblərə uyğun və yüksək templidir. Dünya iqtisadiyyatında xarici ticarət əməliyyatları və investisiya qoyuluşu hazırki beynəlxalq iqtisadi prosesdə həyati əhəmiyyətə malikdir.

**(davamı 6-cı səhifədə)**

# AZƏRBAYCAN SOSİAL-İQTİSADİ İNKİŞAFIN YENİ MƏRHƏLƏSİNDƏ

## *Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strateji kurs Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin daim möhkəmləndirilməsinə xidmət edir*

**(əvvəli 1-ci səhifədə)**

Ölkəmizin bu istiqamətdə yürütdüyü siyasətə uyğun fəaliyyəti müvəffəqiyyətli yekunlar verib və bu proses davamlı xarakter alıb. Beynəlxalq mənzərəyə diqqət etdikdə aydın görünür ki, bir sıra hallarda dövlətlərin iqtisadi mənafeləri qarşılıqlı maraqları təmin etmədikdə müxtəlif xarakterli siyasi, sosial və hətta hərbi toqquşmalarla nəticələnir. Dünya siyasətində baş verən proseslərlə yaxından tanış olduqda aydın olur ki, ən doğru yol balanslaşdırılmış siyasət və beynəlxalq iqtisadiyyata milli mənafeyi nəzərə almaqla inteqrasiya yoludur. Bu yol ən müsbət və perspektivli nəticələrə istiqamətlənib. Aydındır ki, müasir dövrdə bu siyasətin alternativi yoxdur. Belə ki, qüdrətli iqtisadiyyatı qabaqcıl texnologiyasız təsəvvür etmək mümkün deyil. Müasir şəraitdə beynəlxalq qabaqcıl texnologiyanı tətbiq etməyən heç bir ölkə əlahiddə inkişaf edə bilməz. Bu da beynəlxalq bazarların bir təklifidir. Elmi-texniki tərəqqi beynəlxalq intellektdən bəhrələnir və irəliləyir. Beləliklə də geniş beynəlxalq əməkdaşlıq həyati əhəmiyyət kəsb edir. Digər tərəfdən, dünyada demoqrafik vəziyyət ildən-ilə dəyişir, əhalinin ümumi sayı sürətlə artır. Həmin artım hər ölkəyə özünəməxsus iqtisadi və sosial tələb verir. Bu tələbi ödəmək üçün isə yenə də beynəlxalq səmərəli əməkdaşlıq həm hər bir dövlətin, həm də onların yaratdıqları birliklərin, təşkilatların qarşısında vacib proses kimi öz yaranışını gözləyir. Qloballaşma müxtəlif istiqamətlərdə və sahələrdə ümumdünya inteqrasiyasını özündə ehtiva etməkdə, müsbət və mənfi təzahürlərini bildirməkdədir. Təbii ki, bu transmilli prosesdə inkişaf etmiş dövlətlərdən iqtisadi və siyasi asılılığa düşməmək, milli mədəni və şüur baxımından assimilyasiyaya uğramamaq, əriməmək, tabe olmamaq, bir xalq, millət kimi tarixin səhifəsindən silinməmək üçün ümummilli mənafelərə uyğun, müstəqil iqtisadi, siyasi kursa malik olmaq həyati zərurət kimi meydana çıxır. Azərbaycan rəhbərliyi ulu öndərin müəyyən etdiyi kursla, öz düşünülmüş siyasəti və milli mənafeni özündə ehtiva edən strategiya və səmərəli beynəlxalq əməkdaşlıq yolu ilə gedir. Dövlət başçısı mövcud dinamik inkişafın Azərbaycana müstəqil siyasət yürütməyə imkan yaratdığı barədə deyib: “Bu gün Azərbaycan uğurlu inkişafını davam etdirir. Bu, bizə imkan verir ki, müstəqil siyasət aparaq. Əgər bizim iqtisadiyyatımız başqa ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə institutlarından asılı olsaydı, əlbəttə, başqa ölkələrin iradəsini bizə diktə edə bilərdilər. Bu gün heç bir kənar qüvvə bizə öz iradəsini diktə edə bilməz. Əgər belə cəhdlər olursa, biz bu cəhdlərin qarşısını qətiyyətlə alırıq. Azərbaycan dövləti öz yolu ilə gedir. Bu yol müstəqillik və inkişaf yoludur. Azərbaycan xalqı öz taleyinin sahibidir. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz , bizi inkişaf yolundan döndərə bilməz. Ona görə ki, iqtisadi inkişaf bizim uğurlu inkişafımızın, müstəqilliyimizin əsas təminatçısıdır”.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**